*UOT-811.11-112*
*Səhifə: 184-187*
*https://doi.org/10.59849/2663-8967.2024.1.184*

***Turan Məmmədova***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

# BƏDİİ MƏTNDƏ SİNTAKTİK KOMPRESSİYA VASİTƏLƏRİ

## XÜLASƏ

Bədii mətnin bir-biri ilə bağlanan informasiyası onun məzmun və mahiyyətini təyin edir. Mətn informasiyanı həm implisit, həm də eksplisit formalar vasitəsi ilə verir. Bəllidir ki, mətn elmi, bədii, mədəni-tarixi və s. informasiyaları əks etdirir. Mətnlə informasiyanın bağlılığı bu baxımdan aktual sayılır. Yazıçı yaratdığı mətndə müxtəlif sintaktik hadisələrdən istifadə edir. Həmin vasitələrdən biri də sintaktik kompressiya üsullarıdır. O, mətndə vacib olan informasiyanı bir-biri ilə əlaqələndirən vasitələri, konkret mətn vahidlərini müəyyənləşdirir. Bədii mətn və informasiyanın qarşılıqlı şəkildə öyrənilməsi əsas etibarilə həm struktur (formal), həm semantik (məzmun) və həm də kommunikativ (funksional) faktorlarla birbaşa əlaqədardır. Məqalədə bədii mətnlə bağlı üç cür informasiya müəyyənləşdirir: 1.faktual-məzmun (mahiyyət); 2. konseptual məzmun (mahiyyət); 3. mətnaltı məzmun (mahiyyət).

***Açar sözlər:*** *mətn, bədii informasiya, sintaktik hadisələr, kompressiya, sintaktik vasitələr.*

**Giriş:** Nitq mühiti və şəraiti informasiyanı ən əlverişli ifadə etməkdən ötrü nisbətən mürəkkəb sintaktik konstruksiyaların daha sadələrinə (nəhayətdə müəyyən dilin iç strukturlarının mənası apriori verilən sintaktik konstruksiyalarına) çevrilməsi kimi başa düşülür. Bu o deməkdir ki, hər hansı bir çevrilmə (transformasiya) kompressiyaya (sıxlaşmaya) yol açır.

Dilçiliyin sintaksis bölməsi dilin mövcudluğunun başlıca elementlərindən biri sayılır. Sintaksisdə düşüncənin ifadəsinə bir sıra cümlə tipləri xidmət edir. Həmçinin, həmin cümlə formaları fikrin, informasiyanın ötürülməsinə də yardım edir.

Sintaksis elə bir elmdir ki, onu asanlıqla "sxemləşdirmək" mümkündür. "Sintaktik sxem"in mənasının, orada olan informasiya vermə gücünün araşdırılması bu baxımdan aktualdır və bu əsasda mətnin cümlələri ilə ötürülən informasiyanın formal-qrammatik modellərinin bölgüsünü də verməyə səy göstərilir. N.Şvedovanın təbirincə, *«sintaktik sxem»in komponentlərinin abstrakt semantikası və onlar arasındakı əlaqələr konstruksiyanın sıxlaşdırılmış, qısaldılmış semantik quruluşunun özəyi kimi çıxış edərək, onu ən ümumi şəkildə təmsil edir. Bu semantik struktur həmin özəyin və bu sxemi dolduran leksik vahidlərin mənalarının qarşılıqlı təsiri ilə yaranır. Burada sintaksislə sözyaradıcılığının qarşılıqlı münasibəti də yaranır"* [1, s. 87 ].

Mətnin informasiyası dilin müxtəlif səviyyələri, vasitələri əsasında sıxıla bilir. Həmin vasitələrdən biri sintaktik vasitələrdir. Sintaktik vasitələr əsas etibarilə cümlə vahidlərindən və bu xüsusda baş verən sintaktik hadisələrdən ibarətdir. Sintaktik hadisələrə aşağıdakıları göstərmək olar: yarımçıq cümlə, elliptik cümlə, parselyasiya hadisəsi, transformasiya hadisəsi, sintaktik paralelizm və s.

Bədii mətn informasiyanı təqdim edən xüsusi bir formadır. Biz bu günə qədər daha çox mətnin formal-qrammatik strukturu ilə məşğul olmuş, semantika, informativlik məsələlərinə sistemli diqqət yetirməmişik. Mətn isə nitq mədəniyyətinin daha yüksək inkişaf pilləsinin uğuru olduğu üçün onun informasiya strukturunun araşdırılması bir zərurət kimi ortaya çıxır. M*ətnin informasiya strukturu anlayışı adı altında mətni əlaqələndirən vasitələrin təşkili, müxtəlif situasiyalarda qarşılıqlı bağlılıq formalarının və məlumatların informasiya vermə sırası başa düşülür*. [2, s.12-10]

Burada mətnin təşkilində xüsusi vasitələrdən istifadə edilir. Mücərrədlik-mətnin qurulmasında məntiqi prinsip, mətnin strukturunu məntiqi sintaktik struktur təşkil edir; budaq cümlələr arasında tabesizlik və tabelilik əlaqəsi və s. meydana çıxır. Bu baxımdan (1) mətndə

informasiyanı gücləndirən vasitələrdən danışmaq lazım gəlir. Məsələn, müraciət forması mətndə informasiyanı qüvvətləndirir: Balası,- dedi, -bura toy deyil ki! Öz aramızda eybi yoxdur. (Mir Cəlal); Həştərxana *atılanlar böyük inqilabın ilk əsgərləri* işıqlanan vətənə dönürdülər. (Mir Cəlal); leksik təkrarlarla: Dünyada hər işi görən biz, biz əkək, biz biçək, biz yetirək, dəmiryolunu biz çəkək. Fabriki biz işlədək… (Mir Cəlal); Qədrin adı mənim kəndimdən *çoxdan silinib, çoxdan silinib* gedib. (Mir Cəlal) və s.

Digər bir tərəfdən də mətndə informasiyanı sıxlaşdıran vasitələrdən də bəhs etmək olar. Bu vasitələr hansılardır? Məsələn, ellipsis hadisəsi nəticəsində: Səni içəri aparmaq, bax, *bibinin bu boynuna!* (Mir Cəlal); Bu papaq bizə!... (Mir Cəlal); situasiya: Molla Qulamın planı beynimə batır. *Onun…sıs…sıs, ssss!* (Mir Cəlal); Qiyas əlini ağzına qoyub, işarə verdi! *Sus!* (Mir Cəlal); təktərkibli cümlə: Kənddə danışılırdı ki: Cavanları əsgər aparacaqlar. (Mir Cəlal); təktərkibli yarımçıq cümlələrlə: Deyirlər, azadlıq verilib axı! Yalandır! (Mir Cəlal); söz-cümlələrlə: Məni Söyüdlü kəndindən götürmüşsünüz? Bəli! Bəs haraya təyin etmişsiniz? Evinizə. Ayrı məktəbə qoya bilməzsiniz? Yox! (Mir Cəlal); adlıq cümlə ilə: İyirminci il, sentyabr. (Mir Cəlal); əlavələrlə: Varlı uşaqlarına yaxın getmə! Öz *taylarınla* gəz! *Hidayət, Cəlal, Cahanla…*(Mir Cəlal); qoşulmalarla: Sağ ol, Mirzə Şəfi! Dünya durduqca…(Mir Cəlal); Dünya iki tərəfə bölünüb: *kasıb dövlətli.* (Mir Cəlal);

Tərz budaq cümləsinin kəsilməsi ilə: *Ona elə gəlirdi ki…*(Mir Cəlal); Susmaq manerası ilə: Dirilmisən, dirilmisən a donuz oğlu, hanı kağızın, hanı sübutun? ... (Mir Cəlal); Atalar sözlərinin bir hissəsinin işlənməməsi ilə: Ata-babadan da görmüşük. *Şam qızaranda… (dan yağar-* ixtisar edilib)

Müəyyən ölçüdə praqmatiklik (yəni dil işarələri ilə bu vahidlərdən istifadə edənlər arasındakı əlaqə), yeni informasiya üçün mətnin informativliyini çoxaldır. Mətnin informativliyinin artırılmasının 2 üsulu mövcuddur: 1) intensiv üsul, 2) ekstensiv üsul.

İntensiv yolla, üsulla informativliyin artaraq çoxalması mətn həcminin azaldılması (sıxılması) vasitəsilə əldə edilir. Bu zaman informasiya sıxılır və mətndə struktur gərginlik, obrazların nitqində həyəcan yaranır.

Ekstensiv üsul mətnə daxil edilən informasiya həcminin artırılmasına əsaslanır. Onun tətbiqi baş verən hadisələrin təfərrüatlarına (detallarına) varmaqla əldə olunur. Bu cür informasiyaların aşağıdakı növlərindən danışmaq mümkündür:

***Operativ informasiya*** (appelyativ informasiya, sıxılması) belə mətnlərdə informasiya vadaredici, məcburedici, təhrikedici olur. Məs.: *Oğlum, atını sür qabağa Yorğa yerişli, həm də çaparaq sür. Qoy mənim də atımı ardınca yortsun. Toran çalmamış kəndə çataq.* [476 s.]; *Ayağa qalx!* Çağırışı, hərbi mətnlərdə, feili imperattivlərdən istifadə; mətndə cümlələrin həcmi kiçik olur. İmperativlik mənaları üstün olur.

***Emosional informasiya*** (sıxılması). Həmin informasiyada subyektivlik və konkretlik özünü göstərir. Bu informasiya bədii mətn səviyyəsindədir. Belə mətnlərdə obrazlılıq əlaməti güclü olur. Həmin mətnlərdə intertekstuallıq xüsusiyyəti də mövcuddur. Emosional informasiyanın verilməsində intertekstuallıq mühüm rol oynayır. Məs.: *"Nəhlət daşının altında Şeytan yatır. Həmin Şeytan iki kəndi torpaq üstündə bir-biri ilə düşmən edib. Bir kəndin adamları o biri kəndin çobanını öldürüb. O biri kənd də bunun əvəzini çıxıb. Bu qan düşmənçiliyinin qarşısını almaq üçün hər iki kəndin ağsaqqalları bir yerə toplaşıblar, həmin yeri lənətlənmiş yer sayıblar və ora "Nəhlət daşı" qoyublar"* [ s.240]

***Koqnitiv informasiya*** (dünya haqqında obyektiv məlumat; koqnitiv informasiyanın 3 parametri fərqləndirilir: obyektivlik, mücərrədlik və sıxlıq (kompressivlik).

***Estetik informasiya*** (təkrarlarla, sintaktik paralelizmlərlə, eptitetlərlə). Məs.: Adil, sən bir ağıllı kişinin oğlusan\\Adil, bir ağıllı kişinin oğlusan.\\Adil, bir kişinin oğlusan\\Adil, kişinin oğlusan.

Təkrarlar vasitəsilə estetik informativlik: *"Ölkəmizin faunasında indiyə kimi tanış olmayan yeni quç növü icad eliyib: "yovşan qağayılar". Heç görən Qarabagda yovşan qagayı var? Qarabagda yovşan hardadı ki, yovşan qagayılar da olsun! Yovşan qağayılar, bu müəllifin təxəyyülüdür"* [s.267]

Sintaktik paralelizm vasitəsilə estetik informativlik: Q.Kazımov yazır ki, *“paralelik mətndə koqüziya əlamətlərindən biridir. Sintaktik paralellik mətn komponentlərini əlaqələndirən mühüm vasitələrdəndir. Sintaktik bütöv daxilində qrammatik vasitələrin, sözlərin, birləşmələrin, ifadələrin təkrarı komponentlərin eyni strukturda, eyni dərəcədə ritmik şəkildə qurulmasına səbəb olur. Silsilə şəklində, simmetrik, düzxətli paralelizmlə yanaşı, şəbəkəli paralelizm də vardır. Məs.: Kim bilir, bəlkə İslam dayı görür. İslam dayının baxdığı o yerdə, bəlkə, sərçələr, sağsağanlar hələ də öz dillərində danışırlar, orada günəş bəlkə hələ də dağların dalında yatmağa gedir...Bəlkə orada gündüzdür. Axşam çağıdır və otların üstündə bir kəpənək uçur, kəpənək maqqac axtarır...Bəlkə, axşamdır, cümə axşamıdır və haradasa qorxa-qorxa bir çıraq yanır. Cıraq “o dünyadan” gələnlərin yolunu gözləyir? Kim bilir, İslam dayının baxdığı o yerdə bəlkə heç nə yoxdur-vir qara zülmətdən savayı.* (Ə.Əylisli) [3, s.423].

Sıxılmanı xitab, sintaktik paralelizm, yarımçıq cümlə, elliptik cümlə, parselyasiya hadisəsi, ixtisarlar və s. əmələ gətirir. Yarımçıq cümlə sintaktik sıxılma vasitəsidir. Dialoq vahidi olan bu cümlə tipi vasitəsi ilə mətndə informasiya mütəmadi sıxılır. Sıxılmış mətnlərdə semantik qənaət (yarımçıq və elliptik cümlələr əsasında) yaranır. Dialoq nitqinin yarımçıq cümlələr sözalmanı ən çox təzahür etdirir. Bu cümlələrin «yatağı» daha çox dialoqlardır. Həmin cümlələrlə dialoq kommunikasiyanın ən canlı, «çevik» formasına çevrilir.

Yarımçıq cümlə bütöv cümlə ilə sintaktik variantlıq təşkil edir. O cümlədən, elliptik cümlələrin də variantları mövcuddur. Sintaktik variantlar eksplisit və implisit variantlar şəklindədir. Belə cümlələr verbal və qeyri-verbal şəkildə olur. Müxtəlif kommunikasiyada kommunikativ strategiya hansında yüksək olursa, həmin formanın işlənməsinə şərait yaradılır. Kommunikativ kompetensiya formalaşır. İmplisit cümlələrin kommunikativ strategiyasında fikir sıçrayışı nəticəsində bir sıra effektlər yaranır. Həmin effektlər aşağıdakılardır: 1. Qənaət effekti. 2. İnformasiyanın yüksəlməsi effekti. 3.Remanın markirovlaşması effekti. 4.Ekspressivlik effekti.

Xitab, parseyasiya, ellipsis, yarımcıqlıq, qoşulma, seqmentasiya kimi sintaktik hadisələr müasir Azərbaycan dilində araşdırma obyekti kimi çox maraqlıdır.

Belə ki, hər hansı bir fikri ifadə etmək üçün müxtəlif quruluşlu cümlələrdən istifadə olunur. Cümlənin qurulması isə sözlərin bir-birinə müəyyən sintaktik əlaqə və vasitələrlə bağlanması ilə şərtlənir. Müxtəlif sintaktik hadisələr, necə deyərlər, nitq prosesinin təzahürüdür. Kommunikasiya zamanı həm tam, həm də sıxılmış konstruksiyalardan istifadəyə ehtiyac duyulur. Məsələn, cümlədə xitab işlənəndə o tam, atılanda sıxılmış şəkildə olur: Səlimə, bu gün bizə gələcəksənmi?” cümləsində “Bu gün bizə gələcəksənmi? Kimi işlətsək, sıxılma baş verir. Göründüyü kimi, xitabın atılaraq cümlədə işlənməməsi məzmuna bir o qədər də xələl gətirmir; deməli, xitab, şəraitdən asılı olaraq konstruksiyada həm işlənə, həm də işlənməyə bilər.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, nitq aktı zamanı müsahiblər arasında ünsiyyət münasibətinin formalaşması üçün bir sıra funksiyalar vardır: 1. İnformasiyanın təzahürü, 2. emosiyanın təzahürü. Yəni danışın nəzərdə tutduğu hər hansı bir məlumatı sıxılmış sintaktik vahidlərlə də çatdıra bilər, bütün bunlar kontekstdən, orada təsvirini tapan situativ hadisələrdən asılı şəklə düşür. Nitq aktı ərəfəsində həmsöhbətlər arasında ünsiyyət münasibətinin əmələ gəlməsindən ötrü 3 başlıca funksiya mövcuddur: 1. İnformasiyanın; 2) müraciətin, 3) emosiyanın ifadəsi.

Xitab danışanın dinləyənə müraciəti zamanı ikinci şəxsə müvafiq gələn söz və ya söz birləşmələridir. Kənarda yerləşən xitablar, cümlə üzvü ola bilmir. Xitabların cümlədə ekvivalentləri vardır. Amma xitab olunan şəxs mübtəda kimi işin icraçısı ola bilmir. Bir sintaktik kateqoriya kimi, ünsiyyətin formalaşması prosesində xitabların rolu böyükdür. Xitab cümlənin məzmununa bu və ya digər dərəcədə təsir edir.

**Nəticə:** Tədqiqat göstərir ki, hər bir informasiyanın səciyyəvi xüsusiyyətləri vardır. O cümlədən, bədii informasiyanın. Bədii mətn və informasiya məsələsinin aydınlaşmasında öncə *mətni gerçəkləşdirən dil vasitələri*nin üzərində dayanılır. Ona görə ki, bədii informasiyanın verilməsi, ötürülməsi məhz həmin vasitələrdən asılıdır. Aparılan tədqiqat nəticəsində aşkarlandı ki, bədii mətnin informativliyi effektivlik prosesinin dərkedilməsi ilə əlaqədardır.

Mətnin informativ potensialının genişləndirilməsi onun təhlili üçün lazım olan tamamlayıcı informasiyanın bütün kompleksini daxil edən məlumat bölgüsü prosesində də baş verir. Bədii

mətnin formalaşdırılması və sıxılması prosesində onu yaradanın həm psixi, həm də ünsiyyət fəaliyyəti əks olunur. Mətn ünsiyyət vahidi kimi müəyyən koqnitiv məlumat daşıyır və bu informasiyanın mətni qəbul edənə verilməsi, ötürülməsi mətnin funksiyasına aiddir. Məlumatı aydın olmayan informasiyanın, fikrin dərk edilən mətnə transformasiyası, əlbəttə, ciddi və mürəkkəb prosesdir.

**Ədəbiyyat siyahısı**

1. Əlisahib Əroğul. Seyid Nigari. Roman, Bakı, 2018, «Papirus NP», s.86
2. Шведова Н.Ю. Простое предложение: Основные понятия. Русская грамматика. т.2. Синтаксис. М., «Наука», 1982.
3.Kazımov İ. Türkcə mətnlərin informasiya strukturu və yükü. Sintaktik ütüflər. Bakı, 2023
4.Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, "Elm və təhsil", 2016.

***Туран Мамедова***

***Средства синтаксического сжатия в художественном тексте***

***Резюме***

Взаимосвязанная информация художественного текста определяет его содержание и сущность. Текст передает информацию как в неявной, так и в явной форме. Понятно, что текст научный, художественный, культурно-исторический и т. д. отражает информацию. В этом отношении связь между текстом и информацией считается актуальной. Писатель использует в создаваемом им тексте различные синтаксические события. Одним из таких инструментов являются методы синтаксического сжатия. Он определяет способы соединения важной информации в тексте, конкретных текстовых единиц. Взаимное усвоение художественного текста и информации в основном напрямую связано со структурными (формальными), смысловыми (содержательными) и коммуникативными (функциональными) факторами. В статье автор выделяет три типа информации, относящейся к художественному тексту: 1. фактическое содержание (сущность); 2. концептуальное содержание (сущность); 3. подтекстовое содержание (сущность).

***Ключевые слова:*** *текст, художественная информация, синтаксические явления, компрессия, синтаксические средства.*

***Turan Mamedova***

***Means of syntactic compression in a fiction text***

***Summary***

The interconnected information of a literary text determines its content and essence. Text conveys information through both implicit and explicit forms. It is clear that the text is scientific, artistic, cultural-historical, etc. reflects the information. The connection between text and information is considered relevant in this regard. The writer uses various syntactic events in the text he creates. One of those tools is syntactic compression methods. It defines the means of connecting important information in the text, specific text units. The mutual learning of literary text and information is mainly directly related to structural (formal), semantic (content) and communicative (functional) factors. In the article, the author identifies three types of information related to the literary text: 1. factual content (essence); 2. conceptual content (essence); 3. subtextual content (essence).

***Key words:*** *text, artistic information, syntactic phenomena, compression, syntactic means.*

***Çapa tövsiyə edən:*** ***Azərbaycan Dövlət Aqrar Universiteti***

***Rəyçilər:*** ***professor İsmayıl Kazımov***
***dosent Svetlana Məmmədova***